No: 03 2025
https://doi.org/10.64400/ea25-3-02
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# KƏNGƏRLİ VƏ BABƏK RAYONLARININ ETNOOYKONİMLƏRİNDƏ KƏNGƏRLİ TAYFA İZLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

**Cəmilə MƏHƏRRƏMOVA** [1], **Rüzgar CAMAL** [1]

[1]AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan
*Yazışılan müəllif: camalruzgar@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 05.08.2025
*Nəşr edilmə tarixi:* 28.10.2025

**AÇAR SÖZLƏRİ:**
Naxçıvan, Kəngərli, etimologiya, etnonim, oykonim.

**XÜLASƏ**

Məqalədə qədim zamanlardan bəri Naxçıvan ərazisində məskunlaşmış, buranın əzəli, yerli sakinlərindən olan Kəngərli tayfasının, eləcə də onun müxtəlif qollarının izlərini öz adının daxilində qoruyub saxlayaraq günümüzədək gətirib çıxarmış yer adlarından bəhs olunur. Həmin etnooykonimlər müxtəlif tədqiqatçıların araşdırmalarına əsasən, etimoloji nöqteyi-nəzərdən təhlil edilərək kəngərlilərlə bağlılığı nəzərə çatdırılmışdır. Eyni zamanda, bu onomastik vahidlərin etimoloji tədqiqinin elmi əhəmiyyəti haqqında məlumat verilir. Azərbaycanın, eləcə də dünyanın ən qədim yaşayış məskənlərindən olan Naxçıvan Muxtar Respublikasının Kəngərli və Babək rayonları ərazisində yerləşən qədim yaşayış məntəqələrinin adlarında Kəngərli tayfalarının adı ilə bağlılıqlar araşdırılmışdır. Həmçinin, bəhs olunan etnooykonimlərin tarixi əsasını kəngərlilərin hansı qollarının adından götürdüyü də diqqətə çatdırılan məsələlərdəndir. Həmin oykonimlərin tarixi qaynaqlarda əksini tapmış ilkin versiyası ilə bugünkü versiyası qarşılaşdırılmışdır. Kəngərli rayonuna aid Xıncab, Qabıllı, Yurdçu və Babək rayonuna aid Didivar və Xal-xal yaşayış məntəqələrinin adları etimoloji cəhətdən tədqiq olunmuşdur. Tədqiqat Kəngərli tayfasının adını yaşadan oykonimlərin etimoloji mənşəyini üzə çıxarmaq və onların tarixi-etnik köklərini elmi əsaslarla təsbit etmişdir. Bu cür araşdırmalar, gələcəkdə toponimika, etnogenez və tarix sahələrində aparılacaq araşdırmalar üçün zəngin mənbə rolunu oynaya bilər.

## GİRİŞ

Məlumdur ki, Naxçıvan təkcə Azərbaycanın yox, dünyanın ən qədim yaşayış məskənlərindən olmuşdur. Bu qədim diyarın inkişaf tarixinə nəzər saldıqda bir çox tayfa, tirə, etnos adları ilə rastlaşırıq. Şübhəsiz ki, bu faktlar öz təsdiqini Naxçıvanın zəngin onomastik lüğətində də biruzə vermişdir. Bu sahədə araşdırma apararkən rastlaşdığımız zəngin etnooykonimlər sistemi də yuxarıda qeyd olunanların nəticəsidir. Naxşıvanın yerli sakinlərindən olmuş həmin etnoslardan biri də Kəngərli tayfalarıdır ki, biz bu tayfaların izlərini Naxçıvanın müxtəlif ərazilərinə aid oykonimlərdə tapa bilərik (Rzayev F.H. 2019). Qədim və böyük tayfa olmuş kəngərlilər müxtəlif tirələrə və qollara ayrıldığından birbaşa Kəngərli tayfalarının adı ilə yanaşı onun qollarının adı ilə də bağlı bir çox oykonimlər bərqərar olmuşdur. Bu adların mənsubiyyətinin araşdırılmasının elmi əhəmiyyətindən bəhs edərkən qeyd etmək lazımdır ki, etimologiya və etimoloji araşdırmalar hər bir dilin, o cümlədən, həmin dilin daşıyıcısı olan xalqın tarixinin,etnogenezinin və keçdiyi inkişaf yollarının öyrənilməsində oynadığı müstəsna rol baxımından böyük önəm kəsb edir. Eyni zamanda həm A.Dilaçar, S.Nişanyan kimi şəxslərin türk dillərinin etimologiyasını saxtalaşdırmaq cəhdlərini, həm də müstəqilliyimizdən əvvəlki illərdə milli mənşəli oykonimlərimizin dəyişdirilmək yolu ilə

saxtalaşdırılması siyasətini nəzərə alsaq, bu sahədəki araşdırmaların labüdlüyünə bir daha varmış olarıq. Qeyd etdiyimiz kimi, onomastik vahidlərə sadəcə xüsusi adlar kimi baxmaq düzgün deyil. Onlar həm də tariximiz, milli kimliyimiz, etnik mənsubiyyətimiz haqqında geniş məlumatlar əks etdirir (Rzayev F.H. 2019). Bu nöqteyi-nəzərdən onların etimoloji təhlili böyük əhəmiyyət daşıyır.

Yuxarıda da qeyd etdiyimiz kimi, Naxçıvanın təkcə Azərbaycanın yox, dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu nəzərə aldıqda, xüsusilə, bu bölgənin onomastik sistemini təşkil edən vahidlərin etimoloji tədqiqat obyekti kimi nə qədər əhəmiyyətli olduğu məlumdur. Bu baxımdan Kəngərlilərin izlərinin müxtəlif rayon, məntəqə adları- oykonimlərinin daxilində, tarixi mənbələr əsasında üzə çıxarılması və təsdiqi xüsusi elmi əhəmiyyət daşıyır. Qeyd etdiyimiz kimi, kəngərlilər bütün Naxçıvan ərazisində geniş yayılmışlar, Naxçıvan və ətraf ərazilər onların tabeliyində olmuşdur (Abbasova A.Y.2018). Elə bununla bağlıdır ki, Naxçıvanın müxtəlif rayonlarının inzibati ərazilərinə daxil olan yaşayış məntəqələrinin adında bu tayfanın izləri günümüzdə də qorunub saxlanılmaqdadır. Naxçıvan Muxtar Respublikasının bugünkü inzibati ərazi bölgüsünə əsasən iki ayrı rayon olan Kəngərli və Babək rayonları yuxarıdakı fikirlərə nümunə ola bilər. Belə ki, Kəngərli və Babək rayonunun ərazisinə daxil olan bir neçə yaşayış məntəqəsi (Xıncab, Qabıllı, Şahtaxtı, Yurdçu, Didivar, Xal-xal) Kəngərlilərin izlərini daşımaqdadır. Biz həmin etnooykonimlərin təhlilinə nəzər salmaq istərdik.

## KƏNGƏRLİ VƏ BABƏK RAYON OYKONİMLƏRİNDƏ KƏNGƏRLİ TAYFALARININ İZLƏRİ

Bildiyimiz kimi, Kəngərli adlanan qədim türk əsilli tayfalar Naxçıvanın tarixi sakinlərindən olmuşlar, bununla bağlı olaraq qədim Şərur oykonimlərinin ilk dəfə sistemli şəkildə araşdıran tədqiqatçı alim F.Rzayev belə qeyd edir, *"Oğuz xanının öz dövründə kəngərlər mövcud idi və onlar Azərbaycanda oğuzlarla birləşmişlər. Onlar oğuzlardan da qabaq m.ö. ən azı IV minillikdə tarix səhnəsində olmuşlar. Biz oğuzların, m.ö. II minilliyin ortalarında mövcud olmaqla, ərazilərimizdə məskunlaşaraq, yerli sakinlər olduqları haqda məlumat vermişdik"* (Rzayev.F.H, 2006).

Ölkəmizin ayrı-ayrı ərazilərini tədqiqat obyektinə çevirmiş müəlliflər də bu bölgələrin etnik tərkibi barədə məlumat verərkən, Naxçıvan əhalisinin böyük qisminin Kəngərlilərdən ibarət olduğunu vurğulayırlar. Həmin məsələyə elmi yöndən toxunan tədqiqatçılardan A.Abbasova yazır; *"Müasir türk xalqlarının bir çoxunun, o cümlədən də azərbaycanlıların etnogenizində iştirak edən, Osmanlı qaynaqlarında adı keçən qədim türk tayfalarından biri də Kəngərli türkləridir. Bir çox tarixi qaynaqlardan bəlli olur ki, kəngərlilərin Naxçıvandakı tarixi bizim eradan əvvəlki dövrlərə gedib çıxır"* (Abbasova A.Y, 2018). Həmçinin Kəngərli tayfaları Naxçıvan xanlığının idarəetmə sistemində müstəsna rol oynayan qədim türk boylarından olmuşdur. Döyüşkənlikləri ilə seçilən Kəngər türkləri Naxçıvan xanlığının hərb və ordu sahəsində də öz uğurlu xidmətlərini göstərmişlər. Kəngərli oykoniminin etimoloji təhlilinə gəldikdə isə, bununla bağlı bir neçə ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bir neçə mənbə üzərindən müqayisəli araşdırma aparan tədqiqatçı alim F.Rzayev belə qeyd edir, *"Kəngər adının mənası apardığımız tədqiqatlarda istər tarixi, istərsə də mifoloji yöndən araşdırılmış, adın "Kinq yer tanrısı" olduğu Kəngər adının bu mifdən gəlməklə "Kinq ərləri" mənası daşıdığı elmi faktlara istinadən əsaslandırılmışdır"* (Rzayev.F.H, 2013).

İndiki Kəngərli rayonu ərazisində yerləşən və etimologiyası Kəngərli tayfa adı ilə bağlı olan yaşayış məntəqələrindən biri Xıncabdır. Xıncab kəndinin adına "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Qarabağ, Xok və Qıvraq kəndləri ilə birgə Qarabağ nahiyəsinə daxil inzibati ərazi vahidi kimi rast gəlirik (Naxçıvan sancağının müfəssəl dəftəri, 1997). Həmçinin bu qaynaq vasitəsilə həmin tarixi dövrlərdə Xıncab kəndinin əhalisinin sayı və ailə vəziyyəti, eləcə də vergilər haqqında ətraflı məlumat toplamaq da mümkündür. Xıncab oykoniminin etimologiyasına gəldikdə isə, bu ad, yuxarıda da qeyd etdiyimiz kimi, Kəngər tayfalarının adı ilə bağlıdır və səsəvəzlənmələri nəticəsində ilkin versiyasından uzaqlaşaraq Xıncab formasına düşmüşdür. Bununla bağlı F.Rzayev belə qeyd edir: *"Fikrimizcə, ad **k~x, a~ı, q~c** kimi səsəvəzlənmələrlə təhrif olunmaqla, Kanq+ab/ev ilkin formasından sonrakı mənbələrin yazılarına Xıncab şəklində düşmüşdür. Biz adın "Kanq/Kəngər evi mənasında olduğunu düşünürük"* (Rzayev F.H. 2019). Yeri gəlmişkən onu da

qeyd edək ki, Xıncab oykoniminin Adil Bağırovun Naxçıvan oykonimləri ilə bağlı tədqiqatında fərqli izahı ilə qarşılaşmaq mümkündür.

Haqqında danışacağımız növbəti yaşayış məntəqəsi Kəngərli rayonu ərazisində yerləşən Qabıllı kəndidir. Qabıllı kəndi Ulu Öndər H. Əliyevin Naxçıvan Muxtar Respublikasının şəhər və rayonların inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi siyasətinin göstəricisi olan 1 mart 2003-cü il tarixli sərəncamına əsasən bir neçə kəndlə birgə adına qismən dəyişikliklər edilmiş yaşayış məntəqələrindəndir. Belə ki, kəndin adı Qarabullu variantından Qabıllı variantına salınmışdır. "Azərbaycan toponimləri" ensiklopedik lüğətində bu oykonimin Qabullu variantına rast gəlirik. (yenə orada) Qeyd edilir ki*, "Toponimin kəngərli tayfasının qabullu qolunun adı ilə bağlılığı güman edilir"* (Azərbaycan toponimləri. IIcild, 2007). Bu adın mənşəyinin izahı ilə bağlı V.V.Latışev, R.K.Uslar, İ.Miziyev kimi alimlərin əsərlərinə, eləcə də, F.Rəşidəddinin "Oğuznamə" əsərinə əsaslanaraq F.Rzayev "Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri" kitabında kap lekseminin "Kavkaz" sözünün kökü kimi dəyərləndirmiş və bu sözün türk dillərində "ölkə", "yurd", "vətən", "beşik" mənasını ifadə etdiyini, il/ıl leksik vahidinin də "yurd", "vətən","vilayət" mənalı söz olduğunu, lakin bu halda "yurd,ilçə" şəklində adın məna izah etmədiyini və türk dillərinə xas **b~m** səsəvəzlənmə hadisəsini nəzərə alaraq "qam" lekseminin qədim türk sözü olduğunu və türklərin şamançılıq inanclarında "önü görən", "peyğəmbər", "şaman" və s. mənalarını diqqətə çəkərək sözün Qamilli-Şaman yurdu mənasında olduğunu və -lı şəkilçisinin ada sonrakı əlavə olduğunu qeyd etmişdir (Rzayev F.H. 2019).

Kəngərli rayon ərazisində yerləşən qədim yaşayış məntəqələrindən biri də Yurdçu kəndidir ki, adı kəngərlilərlə bağlıdır. 1900-1924 cü illərin arxiv materiallarına diqqət yetirdikdə, Yurdçu adının Yup-çu yazılış formasına da rast gəlirik. Bu ad kəngərlərlə bağlı etnooykonimlərdən biridir. V.Qriqoriyev, A.Bağırov və b. tədqiqatçıların Yurdçu oykoniminin Kəngər tayfalarının bir qolu ilə bağlı olduğu fikrini F.Rzayev təsdiq edərək qeyd edir ki, *"Biz mənbələrə istinadən bu izahın doğru olduğuna dair elmi faktlarla qarşılaşırıq"* (Rzayev F.H. 2019). Həmçinin "Azərbaycan toponimləri" ensiklopedik lüğətində də eyni fikirlə qarşılaşırıq. Burada isə qeyd olunur ki, "oykonim kəngərli tayfasının yurdçu tirəsinin adı ilə bağlıdır" (Azərbaycan toponimləri. IIcild, 2007). Bir neçə mənbədəki məlumatların müqayisəsi bir daha təsdiq edir ki, Yurdçu oykonimi Kəngərli türklərinin eyniadlı qolu ilə bağlı etnooykonimdir.

Qeyd etdiyimiz kimi, Kəngərli tayfaları və onların müxtəlif tirələrinin yaşadığı ərazilər Naxçıvanın geniş bir hissəsini əhatə edir. Elə bununla bağlıdır ki, həmin tayfaların izlərinə Babək rayon ərazisində yerləşən yaşayış məntəqələrinin adında da rast gəlmək mümkündür. Məsələn, Didivar - Hazırda Babək rayonunda kənddir. XX əsrdə Şərur-Dərələyəz qəzasına aid olmuşdur (Пагирев Д.Д., 1913). Mənbələrdə *Didvəng, Didavar* variantlarına da rast gəlirik (Пагирев Д.Д., 1913; Шопен И. 1853). K.N.Smirnov *Diduvar* və ya *Dedivar* şəklində qeyd edir. Tədqiqatçı sözün mənasını "çoxdanışanlar" kimi izah edir (Смирнов Н. К, 1999).

Q.Qeybullayev və B.Budaqovun fikrincə, toponim qədim fars dilində *dida*-"qala" və *var*-"yer" sözlərindən ibarətdir (Budaqov B. Qeybullayev Q., 2004). Digər bir mənbədə göstərilir ki, *didi* fars dilində "görüş, görüşmə", *var* isə "yer, yurd, məskən" deməkdir və Didivar "iki çayın görüşdüyü yerdə kənd" mənasında işlənir (Azərbaycan toponimləri. IIcild, 2007). Fikrimizcə, tədqiqatçılar kənd adının kəngərli nəsil adı ilə bağlı yaranması ehtimalını nəzərdən qaçırmışlar. Belə ki, K.N.Smirnovun da adını çəkdiyi didivarlı tayfaları kəngərli soyundandır, oykonim nəsil adı əsasında adlandırılmışdır.

Xal-xal hazırda Babək rayonunda kənddir. XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid edilmişdir (Пагирев Д.Д., 1913). Qeyd edək ki, XX əsrin əvvəllərində Nuxada Xalxal kəndi və dərəsi (uşelye), Xal-xalçay çayı, Aleksandropol, Sürməli, Novobayazid qəzalarında Xalxalı dağ adları qeyd olunmuşdur (Пагирев Д.Д., 1913). V.Qriqoryev kəndin digər adının Aşağı Məzrə olduğunu qeyd edir (Григорев В.В,1833). K.Smirnov kənd adını Xalxalı şəklində qeyd edir (Смирнов Н. К, 1999)və burada kəngərlilərin yaşadığını yazır. Tədqiqatçı Naxçıvan arxivindən əldə edilmiş dəftərə əsasən 28 kəngərli nəslinin adını çəkir və burada kəngərlilərə aid xalxalı nəslinin olduğunu da göstərir (Смирнов Н. К, 1999). Fikrimizcə, toponim kəngərli nəsil adlarından

olan xalxalılarla bağlı yaranmışdır. Kənd adı sonradan Xalxal şəklində işlənmişdir. “Xalxal” Babək rayonu ərazisində, Naxçıvançayın sahilində yerləşən kənd adıdır. Bu adda oykonimlər XIII əsrdə indiki İran, XIX əsrdə Naxçıvan və Gürcüstan ərazilərində qeydə alınmışdır. Xalxal toponiminin tarixi bizim eranın ilk yüzilliklərinə aid edilir. Bu haqda danışan T.Hacıyev yazır ki, qərb qrupu dialektlərimizdə “mal-qara saxlanan daldanacaq”, “koma”, “xırda yaşayış yeri” mənasında işlənən “xalxal” sözü eramızın əvvəllərində hunlar tərəfindən tikilən Xalxal şəhərinin adı ilə bağlıdır. Bu şəhər haqqında məlumata Yaqut əl Həməvi və Həmdullah Qəzvininin əsərlərində də rast gəlirik. Digər bir müəllif M.Kalankatlının “Alban tarixi” əsərinə istinadən yazır: “Bizim eranın I minilliyində alban çarlarının indiki Qazax və Ağstafa zonasında qış iqamətgahları “Xalxal” adlanırdı. Bu söz Azərbaycan dilində sonrakı əsrlərdə də “mal ağılı”, “qışlaq”, “tövlə” mənalarında işlənmiş və bununla əlaqədar olaraq “Xalxal” kimi toponimlər yaranmışdır. Ehtimal ki, hələ V əsrdə mövcud olmuş Xalxal təkcə aran çarlarının qış iqamətgahı yox, ümumiyyətlə, aranlıların qışlağı olmuşdur”. Yuxarıdakı müəlliflərdən fərqli olaraq, M.Vəliyev (Baharlı) xalxallıları dərvişliklə məşğul olub, Səfəvilər dövründə Azərbaycana gələn, köçəri həyat tərzi keçirən, sonralar ölkənin müxtəlif ərazilərində məskunlaşan bir tayfa kimi təqdim edir. Toponimin ilkin yaranışı heyvandarlıqla bağlı olsa da, sonralar məzmununu itirmiş, zaman keçdikcə etnonim və oykonim kimi formalaşmışdır. Belə ki, XIX əsrdə Xalxallı tayfası kəngərlilərin bir qolu kimi Vayxır kəndində qeydə alınıb. Bu tayfaya məxsus ailələr kəndin indiki ərazisindən qışlaq kimi istifadə edib və zaman keçdikcə ərazini daimi yaşayış məntəqəsinə çevirmişlər. Deməli, “Xalxal” Kəngərli tayfalarının adı ilə bağlı olan kənd adıdır.

## ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR

Naxçıvan ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin toponimlərində də öz təsirini göstərmişdir. Kəngərli və Babək rayon inzibati ərazilərinə daxil olan yaşayış məntəqə adlarının etimoloji nöqteyi-nəzərdən araşdırılması ilə əldə edilən məlumatlar bir daha həmin ərazilərin qədim türk tayfalarından biri olan kəngərlilərə məxsus olduğunu göstərir. Tarixi proseslər nə qədər məntəqə adlarına müəyyən təsirlər göstərsə də, gördüyümüz kimi adlar tarixdən birdəfəlik silinmir. İşin yekun nəticəsi kimi deyə bilərik ki, Kəngərli və Babək rayonlarındakı Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir. Bu deyilənlər yuxarıda qeyd etdiyimiz yer adlarının etimoloji təhlili nəticəsində, həmin adların mənşəyinin Türk mənşəli tayfalardan olan kəngərlilərin adı ilə əlaqədar olduğu faktı əsasında bir daha öz təsdiqini tapır.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Aparılan araşdırmalar göstərir ki, Kəngərli və Babək rayonlarındakı toponimlər bölgənin qədim türk tayfalarından olan kəngərlilərlə əlaqədardır. Bu fakt, həmin ərazilərdə yaşayan tayfaların adlarının yer adlarında yaşadığını və tarix boyu qorunub saxlandığını sübut edir. Etimoloji təhlillər göstərir ki, bu toponimlər milli-mədəni yaddaşın daşıyıcısı kimi çıxış edir. Tarixi proseslərin təsirinə baxmayaraq, bu adların silinməməsi onların dərin köklərə malik olduğunu göstərir. Beləliklə, toponimlər ərazinin tarixi və milli kimliyi haqqında əhəmiyyətli məlumatlar verir.

## ƏDƏBİYYATLAR


1. Abbasova A.Y. (2018). Osmanlı qaynaqlarında Naxçıvan və ətrafının onomastikası. Bakı: Elm və təhsil,160s.
2. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. İki cilddə.IIcild, (2007). Bakı: Şərq-Qərb, 304s
3. Budaqov B. Qeybullayev Q. (2004). Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta Press, 120 s.
4. Naxçıvan sancağının müfəssəl dəftəri (1997), Bakı: Sabah, 336 s.
5. Rzayev F.H. (2006). Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 242 s.
6. Rzayev F. H. (2013). Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə II-I minilliklər). II cild Bakı: ADPU-nun mətbəəsi, 528 s.
7. Rzayev F.H. (2019).Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: ADPU, 244 s.
8. Григорев В.В. (1833). Статистическое описание Нахичеванской провинций, Санкт-Петербург: 264 с.

9. Пагирев Д.Д. (1913). Алфавитный указатель к пятиверстной карт Кавказского края. Тифлис: Типография К.П.Казловского, 530 с.
10. Смирнов Н. К. (1999). Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г), Баку: Озан ст, 156.
11. Шопен И. (1852). Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 644 с.


## SUMMARY

## COMPARATIVE STUDY OF KANGARLI TRIBAL TRACES IN THE ETHNOYCONYMS OF KANGARLI AND BABAK REGIONS


**Jamila Maharramova, Rüzgar Jamal**



The article talks about the place names of the Kangarli tribe, which has been living in the territory of Nakhchivan since ancient times, and which has preserved the traces of its various branches within its name and brought it to the present day. Based on the researches of various researchers, those ethno-onyms were analyzed from the etymological point of view and brought into consideration of the connection with Kangar people. At the same time, information is provided about the scientific importance of the etymological study of these onomastic units. In the names of the ancient settlements located in Kangarli and Babek regions of Nakhchivan Autonomous Republic, which are among the oldest settlements in Azerbaijan, as well as in the world, connections with the names of Kangarli tribes were investigated. Also, it is one of the issues that are brought to attention from which branches of the Kangar people took the historical basis of the mentioned ethno-onyms. The original version of those game names reflected in the historical sources was compared with the current version. The names of Khincab, Qabilli, Yurdchu and Didivar and Khal-Khal settlements of Kangarli region and Babek region were studied etymologically. The aim of the study is to identify the etymological origin of the oikonyms that preserve the name of the Kengerli tribe and to scientifically substantiate their historical and ethnic roots. Such research can serve as a valuable source for future studies in the fields of toponymy, ethnogenesis, and history.


**Key words:** Nakhchivan, Kangarli, etymology, ethnonym, oikonym.


## РЕЗЮМЕ

## СРАВНИТЕЛЬНОЕ ИЗУЧЕНИЕ ПЛЕМЕННЫХ СЛЕДОВ КАНГАРЛИ В ЭТНОИКОНИМАХ КАНГАРЛИНСКОГО И БАБАКСКОГО РАЙОНОВ


**Джамила Магаррамова, Рюзгар Джамал**



В статье говорится о топонимах племени Кенгерли, которое с древнейших времен проживало на территории Нахчывана и которое сохранило в своем названии следы своих различных ветвей и довело его до наших дней. На основе исследований различных исследователей эти этнонимы были проанализированы с этимологической точки зрения и учтены связи с кангарским народом. При этом приводятся сведения о научной значимости этимологического изучения этих ономастических единиц. В названиях древних поселений, расположенных в Кенгерлинском и Бабекском районах Нахчыванской Автономной Республики, которые являются одними из древнейших поселений в Азербайджане, а также в мире, исследованы связи с названиями Кенгерлинских племен. Также, одним из вопросов, который обращается внимание, какие ветви кангарского народа взяли историческую основу упомянутых этнонимов. Первоначальный вариант названий игр, отраженный в исторических источниках, сравнивался с нынешней версией. Этимологически изучены названия селений Хинкаб, Габиллы, Юрдчу и Дидивар и Хал-Хал Кангерлинского и Бабекского районов. Целью исследования является выявление этимологического происхождения ойконимов, сохранивших название племени Кенгерли, и научное обоснование их историко-этнических корней. Подобные исследования могут служить ценным источником для будущих работ в области топонимики, этногенеза и истории.


**Ключевые слова:** Нахчыван, Кенгерлы, этимология, этноним, ойконим.